## Suliddin Qasımlı

### Sən elə bilirsən

*Köz salıb min ildir, sinəmdə sevdan,*
*Duyğumda minillik möcüzə, sirsən.*
*Sanıram min ildir payi-piyada,*
*Mən səni, sən bilməm kimi gəzirsən?*

*Səsim ünvanına de gəlmədimi,*
*Kim bilir, dinşəyib susursan bəlkə.*
*Gecələr gördüyün yuxular kimi*
*Bir ünü min yana yozursan bəlkə.*

*Harda itirmişik bir-birimizi,*
*Harda tapacağıq, o bəlli deyil.*
*Yoxsa xatirələr isidir bizi,*
*Xatirə sevgidə təsəlli deyil.*

*Baxıram ömür də keçir yarıdan,*
*Hələ də illərin sınağındayam.*
*Səni bilmirəm, mən sevgi sarıdan*
*Peşiman bir eşqin qınağındayam.*

*Zəncirə bənzəmir həsrətin qıram,*
*Nə coşası ürək təpəri deyil.*
*Daha taleyi də qınayammıram.*
*Tale bu hicranın çəpəri deyil.*

*Fikrimdə min kərə batmışam yasa,*
*Çəkib hesabını bu ilin, ayın.*
*Sən elə bilirsən susub hardasa*
*Yaşayıram qəmsiz, əmin-arxayın.*

*Gətir xəyalına susuz bulağı,*
*Onunçün nə fərqi, təşnə, ya çəmən.*
*Yıxıla-qalxa hey narahat, dalğın*
*Elə yol gedirəm vüsalına mən.*

*Mənzili görünmür son intizarın,*
*Arzular dolaşıb bəxt düyünündə.*
*Başa ağ qəm yağır hey narın-narın,*
*Üzü o yanadır ömrün-günün də.*

*Gedirəm bir eşqin toranlığında,*
*Əsir yoxuşundan soyuq küləyin.*
*İtmişəm xatirə dumanlığında,*
*Ələnir üstümə çənin, çisəyin.*

*Bu çiskin ömrümə hopulur dən-dən,*
*Nə sel olar, nə də üzülər elə.*
*Bu həsrət bir vədə mənim könlümdən,*
*Sənin kirpiyindən süzülər elə.*

*Noyabr, 1980*

### Belə dözə bilsək

Bu sevginin vida leysanı yağdı,
Soyuq parıltından titrəyirəm mən.
Sənin ki, yoxluğun gözümə dağdı,
Niyə gedişini istəyirəm mən?

Gözüm gözlərində donub qalıbdı,
Belə dözə bilək biz çətin amma.
Kirpiyin üzümə kölgə salıbdı,
Torludur gözümdə surətin amma.

Bu qəfil görüşdən çaşıb sevgimiz,
Təzədən doğulub, ölür elə bil.
Səsin qulağıma bir sədа kimi
Çox-çox uzaqlardan gəlir elə bil.

Bir də nə möcüzə, bir də nə sirlə,
O eşq torpağında də bitməliyik.
Hansı od-ocaqla, hansı hənirlə
Bumbuz duyğuları isitməliyik.

Dilimizə gəlmir könlümüzdəki,
Sanki söz-söhbət də tükənib daha.
Arzumuz bir oldu, yolumuz iki,
Eşqin xatirənə söykənib daha.

Hardan biləydik ki...dəmə ömürlük
Tale qismətiymiş bu zülüm bizə.
Dəli sel oldu bu sevgidə kürlük,
Çaylaq daşı qaldı, ay gülüm, bizə.

Ürək sinəmizdə yaralı bir quş,
Nə fərqi, ağrısın, lap qanasın da.
İndi peşimanlıq çırpınır uçmuş
Bir eşq məbədinin astanasında.

Görüşdük... bir anlıq bu məhəbbətin
Yalançı bir bahar yağışı yağdı.
Üşüyəndə gördük amma həsrətin
Qışı çoxdan düşüb, başı dümağdı...

*1982*

## Kəndimizdə bir gecə

Səfərlər ömrümə yaxın düşəndən
Xəyalım həmişə yolda-izdədi.
Haranı gəzsəm də, dolansam da mən
Ürək lövbər salıb kəndimizdədi.

Kənddəyəm...Yenə bir Novruz axşamı,
Fikrimin qatarı, burda dayanır.
Yığılır qohumlar, qonşular hamı,
Həsrət tonqallara qarışır, yanır.

Anam doluxsunur: «Qaçıb bənizin»,
Köksünü ötürüb kiriyir yenə.
Tütək səsi gəlir o yandan həzin –
Kimsə duyğularda əriyir yenə.

Kövrəlib elə bil cığırlar, izlər,
Çaylar istəyincə desən axarmı.
Bir su içimində dönə əzizlər, -
Görən haraylasan gəlib çıxarmı.

Bu axşam sular da özgə cür axır,
Gərək gecəyarı atlar gövşəyə.
Yığıb ətəyini dam üstə qalxır,
Nənəm güzgü tutur bəxtə-bəxt deyə.

Nişanlılar doymur iynə falından,
Kimisə çağırram ver lopamızı.
Eşidib səsimi çəpər dalından.
Təzədən boylanır qonşunun qızı.

Eh! Bu ki, arzudur... çatmır əllərim,
O günlər soyuqdur qışın qarından.
Alovdan atılmır kənd gözəlləri,
Keçir istəyimin yanğılarından.

Səpilə yollara qəm çilik-çilik,
Məcrasından çıxan çay kimi daşam.
Birdən çiçəklənə yenə qəriblik,
Yenə kəndimizə dönəm bir axşam.

*1973*

## Bağban

*Atam Novruza*

*Hər peyvənd içində bir yaşıl ümid,*
*Hər şitil doğulan bir körpə olar.*
*Ömrünün bəzəyi hər ağac – şahid*
*Ötən gəncliyinə bir körpü olar.*

*Gözütək qoruyar sısqa kolları*
*Neçə qələməni boya yetirər.*
*Qurumuş budağa bənzər qolları*
*Neçə-neçə yaşıl budaq bitirər.*

*Burda tutiyadır hər qarış torpaq,*
*Burda leysan kimi tər ələyibdi.*
*Ömrünü-gününü o yarpaq-yarpaq*
*Saraldıb bu bağa səpələyibdi.*

*Çəkib hər ağacın min yol nazını,*
*Bir övlad sanıbdır hərəsini də,*
*Onlara içirib ömrü uzunu*
*Qəlbinin odunu, şirəsini də.*

*Göz torlu, can yorğun, addımlar titrək,*
*Yaşayır ömrünün müdrik çağını.*
*Di gəl ki, bir bağın yoxlaya gərək*
*Gündə neçə kərə hər budağını.*

*Üstünə hər bahar çiçək çağında,*
*Sanıb ki, çiçək yox, nur ələnibdi,*
*Azman ağacların qol-budağında*
*Qüruru göylərə şaxələnibdi.*

*Sevinci nurladar sanki bir bağı,*
*Elə ki, hər ağac nübar gətirər.*
*O nübar meyvəylə o payız çağı*
*Elə bil özü də bir bar gətirər.*

*Torpaqsız bir yaşıl cücərti versən,*
*Onu ürəyində becərər sanki.*
*Ovcunun içi də şumdur deyirsən,*
*Səpsən neçə toxum cücərər sanki.*

*Bir təzə şitilin, bir qələmənin*
*Barını görməyə gümanı gəlməz.*
*Amma pərvanə tək hər qələmənin*
*Dolanar başına yenə dincəlməz.*

*Hər calaq tutanda bəxtdən yarıyar,*
*Sonsuz fərəhindən aşar-daşar o.*
*Hər quruyan zoğla bir az quruyar,*
*Hər yaşıl pöhrəylə yaşıllaşar o.*

*Tarixindən bir yol bağının söz aç,*
*Düşər fikri min yol dərbədər onun.*
*Neçə xatirəylə bağlı bir ağac*
*Könlündə neçə sim tərpədər onun.*

*Hardasa xətrinə dəyərlər ...bağça*
*Açar öz qoynunu bir ana kimi.*
*Bu yaşıl dünyaya sığınar qoca,*
*Dönüb ordan alar təsəllisini.*

*Göy daşlar əridib o əllərində*
*Qov olub hər tonluq çəki elə bil.*
*Hər nəhəng ağacla çaylaq yerində*
*Torpağa işləyib kökü elə bil.*

*Bu yaşıl aləmdən könlünə hər gün*
*Yamyaşıl bir işıq daşıyır bağban.*
*Kim deyər yaxındır qışı ömrünün,*
*Xoşbəxt çağlarını yaşayır bağban!*

*1982*



## Öncə nə deyim

Sən çəmən qoynunda titrək bənövşə,
Mən yanar güneydə çoxillik otam.
Mən ki, ummamışdım güzarın düşə,
Bu yaşda səmtində təzə kök atam.

O nə baxışdı bəs qamaşdı ağlım,
O baxış taleyin töhfəsiydimi.
Sənin həqiqətin, mənim nağılım,
Vədəsiz bir sevgi həvəsiydimi.

Bir qətrə saf suydu ya bilə-bilə,
Çilədin həsrətdən cadar könlümə.
Yoxsa o perikmiş eşqimdi elə,
Qayıdıb təzədən yatar könlümə.

Çırpdı daşdan-daşa damlan gümanı.
Gözümün içində dolanar o su.
Bəlkə sel gətirdi bəxtin leysanı,
Qorxuram məcramda bulanar o su.

Yayındı gözündən saçımın ağı,
Yoxsa qəsdin vardı oda düşəm mən.
Alışdırdın məni ömrün bu çağı,
Duydunmu ki, bir az gecikmişəm mən.

Neçə yol daşıdım özüm-özümə
Mən dağı arana, aranı dağa.
Sandım yanılmısan, sənin gözünə
Ürəyim gəlmədi elə baxmağa.

Qərq oldum gözlərin qarasında mən,
Buna gerçək deyim, əfsanə deyim.
Yandım iki suyun arasında mən,
Elə yandım, ötən ömrə nə deyim...

*1978*

## Gecikmiş subaylar

*Baş qoyub yatdığı hər gecə yarı*
*Elə bil yastıq yox, yorğun gəmidi.*
*Yatağı bilinməz limana sarı,*
*Tufanlar qoynunda üzən gəmidi.*

*Biri o birindən gileyli susar,*
*Dayanıb ömürlə üz-üzə tale.*
*Hardasa nigaran bir Leyli susar,*
*Ha gözlər, göstərməz möcüzə tale.*

*Gözlər hər sabahı bir çapar kimi*
*Ötən gün ömürdən sayıla bilməz.*
*Məstliyindən peşman sərxoşlar kimi*
*Ayılmaq istəyər, ayıla bilməz.*

*Bir şübhə yamayar ağlına hərə,*
*Yumular taleyin pay verən əli.*
*Dumanlı başına gündə yüz kərə*
*Ağıl qoyar çatan ağıllı, dəli.*

*Qırıq xatirələr könül həmdəmi,*
*İçində sellənən dəli çay gəzər.*
*Başında peşman bir sevdanın qəmi,*
*Könlündə susmayan bir haray gəzər.*

*Hər ötən gün bir az qırar tabını*
*Yeriyib üstünə bir yağı kimi.*
*Çəkər qalan ömrün haqq-hesabını*
*Sevdasız bir ömrün qış çağı kimi.*

*Sevdalı gümana üzən gəmisi*
*Haçan qəfil lövbər atacaq bilməz.*
*Bilinməz limana üzən gəmisi*
*Harda o limana çatacaq bilməz.*

*1990*

## Başıma qar yağdı

Getdin uçuruma sən addım-addım,
Nə danım, bu sevgi sandım ötənmiş.
Onda ki, ağladın, mən inanmadım,
Heç demə göz yaşın mirvaridənmiş.

Nə barışıq dedin, nə mən əyildim,
Bir gürşad gözündə quruyan seldim.
Gözəllər kəc baxıb ötəndə bildim
Xoşbəxtlik quş kimi uçub gedənmiş.

Gənclik bir durna tək azdı qatardan,
Başıma qar yağdı bilmirəm harda,
Sandım qara düşdüm qar yuxularda,
Oyandım nə yuxu, saçımda dənmiş.

Mənə bu həsrəti, qəmi gətirən,
Bir hicran göyərdib, bir dərd bitirən,
Gözümün içində səni itirən
Gözlərimə enən dumanmış, çənmiş.

Yağıb gözlərindən mirvari, bildim,
Yağıb saçlarıma nə qarı, bildim,
Tez köçüb bir eşqin baharı, bildim,
Bir onu bilmədim bunlar nədənmiş.

*1975*

## Kənd toyu

Duyğular, hisslər də dağlardan uca,
«Cəngi» havalanır – gücünü göstər.
Qocalar düzülüb çəpər boyunca,
Ötən günlərini qaytarmaq istər?!

Əşrəfoğludumu süzdü Göy atı,
Düz dünya deyirsən köhlənə darmış.
Yenə kişinindir toyun xələti,
At deyil çərləmiş, qanadı varmış.

İgidlər can atır «Yallı»ya dura,
Dağlara səs-səda yayılar indi.
Bəlkə ayaq açıb gəlsəydi bura,
Xına səpələrdi qayalar indi.

Qovuşur ulduzu iki sevənin,
Hay-haray dağ-daşı dəlir elə bil.
Xeyir-bərəkəti ata evinin
Bir az da gəlinlə gəlir elə bil.

Yanır pərdə-pərdə, yanır «Vağzalı»,
Nə yaman kövrəkmiş bu qara zurna.
Ağbirçək qarılar ağzı dualı,
Düzüb fikirləri qatara zurna.

Yaman ürkək-ürkək baxır gözəllər,
Yenə şimşək çaxıb gümanlarında.
Yenə toy evinə axır gözəllər,
Bəxtləri oğlanlar ünvanlarında.

Elə bil bir az da durulub çaylar,
Bəyaz yuxu görür yoxsa dağ-dərə.
Həzinlik libası geyib subaylar,
Bəyazlıq ələnib düşüncələrə.

Göy qurşağı verin kəmər yerinə,
Qurşayaq gəlinin gərək belini.
Ötəndə kövrəlib nəmər yerinə
Bir qərib durna da salar telini.

Kim idi köksünü ötürən belə,
O qız da gözaltı süzdü birini.
Ata sərtliyi də kövrəlib hələ:
– Sən idin, ay qızım, evin şirini.

Sevinc qanadlanır bəylik evinə,
Basır qədəmini doqqaza gəlin.
Bir soyuq subaylıq isinir yenə,
Bələyir bir ömrü bəyaza gəlin.

Uçur göyərçin tək, uçur «Vağzalı»,
Bir az da gurlaşıb çaylar elə bil.
Ağbirçək qarılar ağzı dualı:
«Qoşa qarısınlar ay allah, yüz il!»

*1972*

## Bu da bir ömürdü

*Qat kəsmiş sevinci qəmə bükülü,*
*Bu da bir ömürdü, keçdi neyləyim.*
*Xəzanamı qaldı qönçədə gülü,*
*Bəlkə də qışında açdı neyləyim.*

*Başına bir sevda havası düşdü,*
*Elə ha oxudum sona yetmədi.*
*Elə ömrüm boyu davası düşdü,*
*Ağlımla ürəyim yola getmədi.*

*Qarğadı bilmirəm bu taleyə kim,*
*Məni gah çovğuna, gah oda atdı.*
*Yüyürdüm, yıxıldım, çata bilmədim,*
*Mən piyada oldum, bəxt zalım atlı.*

*Tale oyununda ömür uduzdu,*
*Dayazı gördülər hey, dərini yox.*
*Hərə bu qəzanı bir yana yozdu,*
*Birini bildilər, o birini yox.*

*Açıb-bükmədiyim çox qəm-qubarı*
*Mən öz ürəyimdə sərəsi oldum.*
*Düşmən etmədiyi yamanlıqları*
*Bəzi doğmalardan görəsi oldum.*

*Səhv düşdükcə yerim hər ağlı kəmlə,*
*Elə içimdə bir ocaq yandı hey.*
*Hər damla kədərlə, hər zərrə qəmlə*
*Ürəyim dəniz tək dalğalandı hey.*

*Dərdimlə o qədər baş-başa yatdım,*
*Ürəyim bir qəmə kökləndi elə.*
*Bir arzuya doğru mən ha can atdım,*
*Teylənmiş ov kimi təkləndi elə.*

*Nə səpdim bu şuma, indi nə biçim...*
*Ağlıma gəlməyən başıma gəldi.*
*Ömrümün yazına gəlməz sevincim*
*Əlləri qoynunda qışıma gəldi.*

*Bir ömrün bağına yellərmi əsdi,*
*Qurutduğum nədi, bitirdiyim nə.*
*Mən nəyə gecikdim, nəyə tələsdim,*
*Qazandığım nədi, itirdiyim nə.*

*Çox baxdım yoluna necə istəyin,*
*Qınamaz duyursa məni kim indi.*
*Bir ömrün qəmidi – elə bilməyin*
*Bəxti qınamaqdı təsəllim indi.*

*Bir səadət mənim yanımdan elə*
*Gözlərini yumub keçdi, neyləyim.*
*Bir ömürdü bu da belədən-belə*
*Hərə öz ağlıyla ölçdü, neyləyim...*

*1988*